# MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ SAHƏSİ ÜZRƏ 2010-CU İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

Monitorinq və qiymətləndirmə şöbəsi Təhsil Nazirliyinin mərkəzi aparatının struktur bölməsi olaraq, öz fəaliyyətini digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə qurub və fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyası və Qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Təhsil haqqında Azərbaycan Respublikasının Qanununu, digər normativ hüquqi aktları, Təhsil nazirinin əmr və sərəncamlarını və şöbənin Əsasnaməsini əldə rəhbər tutur.

Respublikanın ümumtəhsil məktəblərində yeni qiymətləndirmə siyasətinin həyata keçirilməsi, yeni məktəbdaxili və milli qiymətləndirmə sistemlərinin hazırlanması, ölkənin beynəlxalq qiymətləndirmə proqramlarında iştirakının təmin edilməsi məqsədilə yaradılmış şöbə son illər fəaliyyətini daha da genişləndirmişdir. Belə ki, şöbə ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin məktəbdaxili, milli və beynəlxalq qiymətləndirilməsi məsələləri ilə yanaşı, ümumi təhsil pilləsində keyfiyyətin idarəedilməsinin monitorinqi sistemlərini əhatə edən işlərin aparılmasını da öz fəaliyyət planına daxil etmişdir. Yaxın gələcəkdə bu prosesin təhsilin bütün pillələrini və müvafiq səviyyələrini əhatə etməsi nəzərdə tutulub.

Bu istiqamətdə 2009/10-cu dərs ilinin ikinci yarısında Monitorinq və qiymətləndirmə şöbəsində aşağıdakı tədbirlər və alt-tədbirlər həyata keçirilmişdir:

2010-cu ilin 22 fevral – 04 aprel tarixlərində Respublikanın (Naxçıvan MR istisna olmaqla) bütün şəhər və rayonlarında 4 bölgə üzrə, bu bölgələrdə məskunlaşmış məcburi köçkün rayonlarını, Təhsil Nazirliyinin birbaşa tabeliyində, ali məktəblərin və peşə liseylərinin nəzdində olan tam orta təhsil məktəblərini əhatə edən mərkəzləşdirilmiş qaydada yoxlama imtahanı keçirilmişdir.

İmtahanların keçirilməsi üçün aşağıdakı işlər yerinə yetirilib:

1. Təlimati sirkulyar məktublar hazırlanmış və yerlərə göndərilmişdir;
2. İmtahanlara hazırlıq və imtahanların keçirilməsi ilə bağlı müvafiq əmrlər hazırlanmışdır;
3. Yerlərdə buraxılış siniflərində təhsil alan şagirdlər, onların fənn müəllimləri və valideynləri ilə təlimati seminar-treninqlər aparılmışdır;
4. İmtahan nəticələrinin effektli qiymətləndirilməsi məqsədi ilə proqram təminatı təkmilləşdirilmişdir;
5. Şagird siyahıları və kodlaşma məsələləri dəqiqləşdirilmişdir;
6. Fənn işçi qrupları tərəfindən test bankı hazırlanmışdır;
7. Test kitabçalarının və digər imtahan materiallarının hazırlanması prosesində məxfilik təmin olunmuşdur;
8. İmtahan nəticələri ilə bağlı statistik məlumatlar hazırlanmışdır;
9. Keçirilmiş yoxlama test imtahanlarının nəticələrinin təhlili ilə əlaqədar hesabatlar hazırlanmışdır;

Peşə liseylərində və ümumtəhsil məktəblərində keçirilmiş yoxlama imtahanlarının nəticələri bir neçə istiqamətdə təhlil edilmiş və müvafiq nəticələr çıxarıldıqdan sonra 21.04.2010-cu il tarixdə peşə liseylərində, 03-18.06.2010-cu il tarixlərində isə ümumi təhsil pilləsində ümumi orta və tam orta təhsil səviyyələri üzrə mərkəzləşdirilmiş qaydada buraxılış imtahanları aparılmışdır. Ümumi orta təhsil səviyyəsi üzrə 133772 nəfər, tam orta təhsi səviyyəsi üzrə 91968 şagirdin cəlb olunduğu bu imtahanların keçirilməsi üçün 301 mərkəz müəyyən edilmişdi.

Bu imtahanlarda 2009/10-cu dərs ilinin XI sinif şagirdləri ilə yanaşı, ötən tədris ilində müəyyən fənlərdən qeyri-kafi qiymət aldığı üçün attestat almayan 8578 nəfər şagird də mərkəzləşdirilmiş qaydada keçirilmiş buraxılış imtahanlarına cəlb edilmişdir. Həmin şagirdlər 2009/10-cu dərs ilinin məzunları ilə bir yerdə deyil, şəhər və rayonlarda yaradılmış əlavə mərkəzlərdə imtahan vermişlər. Eyni zamanda 2009/10-cu dərs ilində payız imtahanlarına qalmış 19767 nəfər IX sinif şagirdindən 14812 nəfəri 02-08.09.2010-cu il tarixlərində keçirilmiş imtahanlarda iştirak etmiş, onlardan 7251 nəfəri imtahanlarda müsbət qiymət almışdır.

Eyni zamanda 24.06.2010-cu il tarixində müəyyən səbəblər üzündən təhsillərini başa vurmayan Respublika vətəndaşlarının ümumi orta və tam orta təhsil səviyyələri üzrə eksternat qaydasında buraxılış imtahanları keçirilmişdir. Bu imtahanlara buraxılış imtahanlarında səhhəti ilə bağlı üzürlü səbəbdən iştirak etməyən, həmçinin imtahanda xəstələnən şagirdlər də cəlb olunmuşlar.

Buraxılış imtahanlarının nəticələrinin qiymətləndirilməsi üçün şöbədə dörd istiqamətdə proqram təminatı hazırlanmışdı. Bu proqramlardan istifadə edilməklə 2009/10-cu dərs ilində IX və XI sinifləri bitirən şagirdlərin, tam orta təhsil səviyyəsi üzrə təkrar imtahanda iştirak edən şagirdlərin, peşə liseylərinin buraxılış sinif şagirdlərinin və "İlin məktəbi" müsabiqəsində iştirak etmiş məktəblərin IX sinif şagirdlərinin cavab kartları oxunmuş və qiymətləndirilmişdir. Eyni zamanda eksternat qaydasında imtahan verən şagirdlərin də cavabları optik qurğu tətbiq edilməklə yoxlanılmışdır.

İmtahanlarda Respublikanın 3078 ümumi orta və tam orta təhsil məktəblərində təhsil alan 128140 nəfər IX, 88852 nəfər XI sinif, peşə liseylərinin 4351 nəfər şagirdi iştirak etmişdir. Dərs ili ərzində şöbənin fəaliyyət planına uyğun olaraq, aşağıdakı işlər görülüb:

- Ümumi orta və tam orta təhsil məktəblərindən, peşə liseylərindən şagirdlərin siyahıları alınmış və bazaya daxil olunaraq hər bir şagird üçün 10 rəqəmli fərdi kod müəyyən edilmişdir;
- Şagirdlərin imtahan verəcəyi mərkəzlər, otaqlar, oturacağı yerlər müəyyən edilmiş və hazırlanmış siyahılar şagirdləri məlumatlandırmaq üçün rayon (şəhər) təhsil şöbələrinə (idarələrinə) və müvafiq təhsil müəssisələrinə göndərilmişdir;
- Məlumatlar təkrar yoxlanılmış, hər bir şagird üçün sual kitabçası variantı müəyyən edilmiş və siyahılar yekunlaşdırılmışdır;
- İmtahanlar keçirildikdən sonra şagirdlərin şöbəyə daxil olan cavab kartları optik oxuyucu qurğu tətbiq olunmaqla oxunmuş və nəticələr qiymətləndirilmişdir.
- İmtahanların nəticələrinə əsasən ümumilikdə həm Respublika, həm şəhər və rayonlar, həm də hər bir rayon və şəhərin məktəblər üzrə reytinq cədvəlləri və hər bir şagird üçün fərdi məlumat forması hazırlanmışdır;
- Yoxlama və buraxılış imtahanlarında istifadə olunan test kitabçalarındakı hər bir sualın müvəffəqiyyət faizi müəyyən olunmuşdur.

Nəzərinizə çatdırırıq ki, Monitorinq və qiymətləndirmə şöbəsinin mərkəzləşdirilmiş qaydada yoxlama buraxılış imtahanlarının nəticələri Nazirliyin 01.05.2010-cu il tarixində keçirilmiş kollegiya iclasında müzakirə olunmuşdur.

Bunlarla yanaşı, aşağıdakı işlər də həyata keçirilmişdir:

- Respublikanın səkkiz şəhər və rayonunda seçilmiş məktəblərdə istedadlı şagirdlər üçün yaradılmış lisey siniflərinə xüsusi istedadı ilə fərqlənən V sinif şagirdlərinin qəbul prosesinin təşkili və seçiminin aparılması məqsədi ilə sual kitabçaları hazırlanmış, imtahanlar aparılmış və nəticələr qiymətləndirilmişdir;
- Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji fakultəsində beynəlxalq məsləhətçi Algirdas Zabulionisin iştirakı ilə "Təhsil nailiyyətlərinin qiymətləndirilməsi üzrə magistratura proqramı" mövzusunda seminar-treninq keçirilmişdir;
- Milli qiymətləndirilmədə ana dili və riyaziyyat fənləri ilə yanaşı, İKT bacarıqlarının yoxlanılması da nəzərdə tutulmuş, bununla əlaqədar Respublikanın şəhər və rayonlarında işləyən informatika müəllimlərindən ibarət işçi qrupu yaradılmış, onlarla beynəlxalq məsləhətçi Algirdas Zabulionisin qiymətləndirmə vasitələrinin hazırlanması ilə bağlı seminar-treninqi keçirilmişdir.

Eyni zamanda, ölkəmizin ümumi təhsil sistemində qiymətləndirmə siyasətinin həyata keçirilməsini tənzimləyən normativ hüquqi sənədlər hazırlanmışdır:

"Ümumtəhsil məktəblərində, peşə liseylərində məktəbdaxili qiymətləndirmə və şagirdlərin sinifdən-sinfə, səviyyədən-səviyyəyə keçirilməsi Qaydaları" hazırlanmış və Dövlət qeydiyyatına alınmaq üçün Ədliyyə Nazirliyinə təqdim edilmişdir.

Ölkəmizin ümumtəhsil məktəblərinin I, II və III siniflərində kurikulumların tətbiqi ilə bağlı şagird nailiyyətlərinin fənlər üzrə məktəbdaxili qiymətləndirilməsinə dair metodik tövsiyələr hazırlanmış və bu istiqamətdə fəaliyyət davam etdirilir.

2010/11-ci dərs ilində imtahan prosesində qarşıya çıxa biləcək çətinliklərin aradan qaldırılması və nizam-intizamın gücləndirilməsi məqsədi ilə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

1. Ümumi orta təhsil səviyyəsi üzrə 12 variantda yoxlama imtahan test kitabçalarının hazırlanması;
2. Tam orta təhsil pilləsi üzrə 18 variantda (sinif otağındakı şagirdlərin sayına uyğun) yoxlama imtahan test kitabçalarının hazırlanması;
3. İşçi-ekspert qrupunun tərkibinin və fəaliyyətinin genişləndirilməsi;
4. Nəzarətçi müəllimlər bazasının təkmilləşdirilməsi;
5. Şagirdlərin ümumi orta və tam orta təhsil səviyyələri üzrə yoxlama və buraxılış imtahanlarına buraxılış vəsiqələrinin hazırlanması;
6. İmtahan rəhbərlərinin optik qurğu ilə oxunan yeni hesabatvermə kartının hazırlanması;
7. İmtahan nəzarətçilərinin optik qurğu ilə oxunan yeni hesabatvermə kartının hazırlanması;
8. Ümumi orta və tam orta təhsil səviyyələri üzrə imtahan aparılacaq fənlərə dair sualların test bankının yenidən işlənməsi, əlavələr edilməsi və kitabça şəklində hazırlanaraq yerlərə çatdırılması.

Eyni zamanda, yeni qiymətləndirmə sisteminin tətbiq edilməsi ilə əlaqədar Bakı şəhərinin, **Biləsuvar** və **Astara** rayonlarının ümumtəhsil məktəblərində monitorinqlər həyata keçirilmiş, digər şəhər və rayonlarda aparılması nəzərdə tutulmuşdur.

Bakı şəhərinin ibtidai sinif müəllimləri üçün "İbtidai təhsil səviyyəsində məktəbdaxili qiymətləndirmə"nin aparılması ilə bağlı seminarlar keçirilmiş və bu proses hazırda davam etdirilir.

**Şöbədə milli qiymətləndirmə sahəsində aşağıdakı işlər görülmüşdür:**

Sınaq milli qiymətləndirmənin nəticələri barədə məlumatlar bazası yaradılmış, təhlil edilmiş, yekun hesabat hazırlanmış və ictimaiyyətə çatdırılmışdır. Cari dərs ilində IX siniflərdə milli qiymətləndirmənin əsas mərhələsinin aparılması üçün şagirdlər və onların valideynləri, fənn müəllimləri, məktəb rəhbərləri üçün sorğu vərəqləri hazırlanmışdır. Eyni zamanda ana dili və riyaziyyat fənlərindən təlim nəticələri müəyyən edilmiş, onları ölçə biləcək müvafiq test variantları hazırlanmış, milli qiymətləndirmənin aparılacağı 200 məktəb müəyyən edilmiş və hazırda şagirdlərin seçimi davam etdirilir.

**Şöbədə beynəlxalq qiymətləndirmə sahəsində aşağıdakı işlər aparılmışdır:**

2010-cu ilin aprel-may aylarında şagird nailiyyətlərinin beynəlxalq qiymətləndirilməsi (PIRLS və TIMSS) proqramlarının sınaq mərhələsi həyata keçirilmiş, onun nəticələri milli kodlaşdırıcılar tərəfindən qiymətləndirilmiş, məlumat bazası hazırlanmış, məlumatlar daxil edilmiş, emal olunmuş və təhlil üçün Təhsil nailiyyətlərinin dəyərləndirilməsi üzrə beynəlxalq Assosiasiyaya (IEA) göndərilmişdir.

Qeyd edək ki, tədqiqat aparılacaq məktəblər dörd coğrafi əlamətə: I-paytaxtın mərkəz məktəbləri, II-paytaxtın ətraf məktəbləri, III-Respublikanın digər şəhərlərinin məktəbləri, IV-rayonların kənd məktəbləri, həmçinin məktəbin tipinə və statusuna) görə müəyyən olunmuşdur.

Respublikamızın bütün regionlarını əhatə edən 44 ümumtəhsil məktəbinin 1421 nəfər IV sinif şagirdi qiymətləndirmə vasitələrinə cavab vermiş, onlar və 1419 nəfər valideyni, həmin siniflərdə (67 sinifdə) dərs aparan 95 nəfər ibtidai sinif müəllimi və məktəblərin rəhbərləri sorğularda iştirak etmişlər. Sınaq tədqiqatının nəticələri qiymətləndirilmiş və nəticələri beynəl-xalq səviyyədə, müqayisəli olaraq qiymətləndirilmək üçün beynəlxalq təşkilata göndərilmişdir.

Eyni zamanda, şagird nailiyyətlərinin məktəbdaxili, milli və beynəlxalq qiymətləndiril-məsini səmərəli şəkildə həyata keçirmək üçün fənn işçi qruplarının (FİQ) fəaliyyəti təmin edilmiş və genişləndirilmişdir. Hazırda bu istiqamətdə işlər, o cümlədən, FİQ-lər vasitəsilə qiymətləndirmə standartlarının, vasitələrinin (alətlərlərinin) hazırlanması və təhsilin məzmun standartlarına müvafiq nümunəvi qiymətləndirmə (mətn və onun qiymətləndirilməsi) vasitələrinin hazırlanması texnologiyası üzrə təlimlər davam etdirilir.

Monitorinq və qiymətləndirmə şöbəsi öz fəaliyyətini Nazirliyin digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə qurmuşdur ki, bu da işin səmərəliliyini artırmaq məqsədi güdür. Dərslik və nəşriyyat, Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması, həmçinin, Kənd rayonları üzrə ümumi təhsil şöbələri ilə qurulmuş birgə fəaliyyət nəticəsində hazırlanan ümumi tövsiyələr, tədris planının təkmilləşdirilməsi və digər məsələlərlə bağlı məqsədyönlü işlər aparılır. Hazırda fənn işçi qrupu tərəfindən “Müəllim fəaliyyətinin qiymətləndirilməsi Qaydaları”nın hazırlanması istiqamətində işlər davam etdirilir.

Hesabat ilində “Azərbaycan müəllimi” qəzetində “Monitorinq və qiymətləndirmə” rubrikası açılmış və bu rubrika altında ümumi təhsil pilləsində məktəbdaxili, milli və beynəlxalq qiymətləndirmənin bu və digər problemləri ilə bağlı məqalələr dərc olunmuşdur. Eyni zamanda kütləvi informasiya vasitələrində və Təhsil Nazirliyinin saytında həyata keçirilmiş tədbirlər və onların nəticələri ilə bağlı məlumatlar verilmişdir.

Ümumi orta və tam orta təhsil səviyyələri üzrə buraxılış imtahanlarının, milli və beynəlxalq qiymətləndirmələrin nəticələrinin təhlili göstərdi ki, Dərslik və nəşriyyat şöbəsi dərsliklərdə nəzəri biliklərin tətbiqinə yönəlmiş məsələlərə geniş yer verməklə yanaşı, dərslik müəlliflərinin, təhsil ictimaiyyətinin beynəlxalq qiymətləndirmə proqramında ana dili, riyaziyyat və təbiət elmlərinə aid təklif olunan suallarla tanış olmalarını və iş təcrübələrində istifadələrini təmin etməlidir.

Mərkəzləşdirilmiş qaydada ümumi orta və tam orta təhsil səviyyələri üzrə keçirilmiş yoxlama və buraxılış imtahanlarında, imtahan prosesində nümunəvi fəaliyyəti ilə fərqlənən nəzarətçilər müəyyən olunmuş və onlara, ümumilikdə təhsil sisteminin inkişafına xidmət edənlərə birgə işimizdə öz əməklərini əsirgəmədiklərinə görə təşəkkür elan olunmuşdur. Məsuliyyətsizliyi ilə fərqlənən nəzarətçilər inzibati qaydada tənbeh olunmuş və onların adları nəzarətçilərin ümumi siyahısından çıxarılmışdır.

Buraxılış imtahanlarının nəticələri kəmiyyət və keyfiyyət baxımından ətraflı təhlil olunmuş, reytinq cədvəlində aşağı yerləri tutmuş şagirdlərin müvəffəqiyyət göstəricilərinin zəif olmasının səbəbi kimi yerli təhsil orqanlarının, məktəb rəhbərləri və fənn müəllimlərinin zəif təşkilatçılığı və pedaqoji fəaliyyətinin nəticəsi göstərilmişdir. Bu məqsədlə yerlərə məktublar göndərilmiş, cari dərs ilində zəruri təşkilati-pedaqoji işlər həyata keçirilmişdir. Eyni zamanda şöbə fəaliyyət göstərdiyi beş ildə həyata keçirdiyi işlər və qarşıda duran vəzifələrlə bağlı hesabat hazırlamış və təqdimatla çıxış etmişdir.

Məktəblərdə şagirdlərin təlim nailiyyətlərinin obyektiv qiymətləndirilməsinin ciddi nəzarətə götürülməsi və fənn müəllimlərinin, xüsusilə də yuxarı siniflərdə dərs aparan müəllimlərin fəaliyyətinin təhlil edilməsi, vəzifəsinin öhdəsindən gələ bilməyən, elmi-nəzəri səviyyə və peşəkarlıq cəhətdən müasir tələbləri ödəməyən, habelə şagirdləri düzgün qiymətləndirməyən müəllimlər barəsində təsirli tədbirlər görülməsi ilə bağlı rayon (şəhər) Təhsil Şöbələrinə zəruri tövsiyələr verilmişdir. Bunlar Strateji təhlil, planlaşdırma və kadrların idarə-olunması şöbəsinin fəaliyyət planında öz əksini tapmışdır.

Əldə edilən təcrübə əsasında yoxlama və buraxılış imtahanlarının daha səmərəli keçirilməsi məqsədilə planauyğun işlər görülür, yeni yanaşmalar və istənilən nəticənin əldə olunması üçün tədbirlər həyata keçirilir.

**Perspektiv fəaliyyət istiqamətində cari dərs ilində müəyyən işlər davam edir:**

- yerlərdə təlimat xarakterli (hazırlanmış müvafiq tövsiyələr əsasında) tədbirlərin həyata keçirilməsi;
- yoxlama test imtahanlarının, eləcə də buraxılış imtahanlarının daha səmərəli keçirilməsi istiqamətində işlərin aparılması;
- aparılmış imtahanlar nəticəsində təhsilin keyfiyyətinin dəyərləndirilməsi və bu sahədə strateji istiqamətlərin müəyyən edilməsi;
- təhsil sahəsində nəzərə çarpan ənənələrin və tədrisin keyfiyyətinə təsir edən əsas faktorların müəyyənləşdirilməsi;
- inkişaf etmiş ölkələrin təcrübəsi nəzərə alınaraq təhsilin keyfiyyətinin idarəolunmasında effektiv metodların tətbiqi;
- qiymətləndirmə standartlarının tətbiqi üsullarının hazırlanması;
- qiymətləndirmə standartları ilə təhsilin keyfiyyətinin əlaqəli təhlili.

Monitorinq və qiymətləndirmə şöbəsinin fəaliyyət planının əsasını təşkil edən yeni qiymətləndirmə sisteminin üstün cəhətləri kimi qeyd etmək lazımdır ki, bu sistem hər bir şagirdin inkişafı, hərtərəfli təhsil alması üçün həlledici komponent kimi çıxış edəcək və eyni zamanda, uğur qazana bilməyən şagirdləri də diqqətdən kənarda qoymamaq şərtilə, müxtəlif yanaşmalarla onların ehtiyacları öyrəniləcək və düzgün istiqamətləndirilmələri təmin ediləcəkdir.